# Ədəbi, ədəbi sənət incisi...

## Bu il 95 yaşı tamam olmuş Vidadi Babanlının "Sabaha ismarıc" romanı haqqında təəssüratlarım



Fəzail İsmayıl Böyükkişi

***Əsərlərini orta məktəb illərindən sevə-sevə oxuduğum Vidadi Babanlı ilə şair taleyim məni 1982-ci ildə Şüvəlan yaradıcılıq evində qalarkən tanış və dost elədi. O vaxtdan 40 ildən çox vaxt keçir. Yaşadığımız mürəkkəb zəmanədə haqqı dediyimiz üçün başımız çox bəlalar çəksə də Ulu Tanrıya çox-çox şükürlər olsun ki, yenə də haqqı deməkdən çəkinmirik, yenə də ürəyimiz bütöv Vətən eşqi ilə döyünür, yenə də könlümüz millətimizin daha da xoşbəxt yaşaması haqqında düşünür. Bu yaxınlarda uzun müddətli fasilədən sonra Vidadi Babanlıyla görüşdüm. Çay içə-içə son dövrlərdə yazdığımız sənət əsərləri və nəşr etdirdiyimiz kitablar haqqında danışdıq. Söhbətimizin sonunda əziz və istəkli dostumuz İsmayıl Şıxlını xatırladıq. Vidadi Babanlı şirin xatirələrə dalaraq, köksünü ötürərək - 'İsmayıl Şıxlının 100-illik yubileyini keçirdik, mənim də 100 yaşıma az qaldı' - dedi.***

Mən də "Hər ikiniz ömrünü əbədiyyətə keçirməyi bacaran sənətkarsınız. İsmayıl Şıxlının 100-illik yubileyində "Türküstan" qəzetində və digər qəzetlərdə "Əbədiyyat qalasısan İsmayıl!" başlığı altında silsilə məqalələr dərc etdirdim, internet-TV və internet saytlarında çıxışlar etdim" – dedim.

Buna hədsiz sevinən Vidadi Babanlı da mənə 2015-2019-cu illərdə yazdığı 2021-ci ildə nəşr etdirdiyi "Sabaha ismarıc" romanını yadigar verdi. Vidadi Babanlıya təşəkkür edib, evə gəldikdən sonra "Sabaha ismarıc" romanını təşnə-təşnə, dönə-dönə oxudum. İlk gəldiyim qənaət belə oldu: "100 yaşına yaxınlaşan Vidadi Babanlının sənətkarlıq qüdrəti, yaxud da faydalı iş əmsalı 100%-a yaxınlaşır, ona görə də Ulu Tanrıdan böyük sənətkarımıza ən azı 100 il yaradıcı, gümrah ömür arzuladım, həm də könlümdən belə bir ülvi istək keçdi: Vidadi Babanlının 100 yaşı tamam olanda dövlətimiz daha qüdrətli, xalqımız daha xoşbəxt, Vətənimizsə bütöv olsun. Vidadi Babanlının 100-illik yubileyi şərəfinə onu sevənlər gözəl bir məclis keçirsin, bu məclisin başında da Vidadi Babanlı öz ürək sözlərini istəkli oxucularına çatdırsın".

***İndi də Vidadi Babanlının tariximizin bir əsrə yaxın dövrünü əhatə edən bütün dövrlərdə olduqca dəyərli "Sabaha ismarıc" romanını "Ədəbi, əbədi sənət incisi" başlığı altında silsilə məqalələr şəklində "Türküstan" qəzetində dərc etdirərək sevimli oxucularımın diqqətinə çatdırıram. Oxuculara onu da deyim ki, Vidadi Babanlı bədii yaradıcılığa şeirlə başladığından "Sabaha ismarıc" romanını yığcam və şairanə şairanə dillə qələmə alıb. Ona görə də "Ədəbi, əbədi sənət incisi" başlığı altında silsilə məqalələrində "Sabaha ismarıc" romanından daha çox nümunələr gətirməyi məqsədə uyğun hesab edirəm.***

Görkəmli şairimiz, naşirimiz, dramaturqumuz Vidadi Yusif oğlu Babanlının əsərlərini hələ orta məktəbdə oxuduğum illərdən sevə-sevə oxumuşam. Tale elə gətirdi ki, keçən əsrin səksəninci illərinin əvvəllərində sevimli yazıçımız Vidadi müəllimlə Şüvəlan yaradıcılıq evində tanış oldum. O vaxt mən Tibb institutunda oxuyurdum. Yazı-pozularım, cızmaqaralarım hələ təzə-təzə qəzet və jurnallarda dərc olunurdu, radio və televizorda səslənirdi. Vidadi Babanlısa "Vicdan susanda", "Müqəddəs ocaq", "Ömürlük əzab", "Zəmanə adamı" romanlarının "Gəlin", "Həyat bizi sınayır", "İnsaf nənə", "Ana intiqamı" povestlərinin, "Öz evində qonaq", "Sınmış inam" pyeslərinin, neçə-neçə memuarların, saysız-hesabsız şeirlərin, hekayələrin, publisistik, yazıların müəllifi idi. Vidadi Babanlı "Vicdan susanda" romanıyla mənsub olduğu ədəbiyyata böyük şöhrət (həm də müəllifini gözüm çıxdıya salıb, onu uzun müddət işsiz-gücsüz qoymuşdu) qazandırmışdı. Azərbaycan ədəbiyyatının canlı klassiki olan Vidadi Babanlının digər əsərləri də həm xalqımız tərəfindən sevilə-sevilə oxunub, həm də xarici dillərə tərcümə olunub. Eyni zamanda, Vidadi Babanlı bədii tərcümə sahəsində də qələmini sınayaraq Valentin Rasputinin "Mariyaya pul lazımdır", "Sonuncu möhlət" povestlərini dilimizə çevirərək öz sevimli oxucularına çatdırıb. Vidadi Babanlı ilə ilk dəfə tanış olanda aramızdakı yaradıcılıq fərqi böyük olduğu kimi, yaş fərqi də böyük idi. Belə ki, Vidadi müəllim 1927-ci ilin 5 yanvarında Qazax bölgəsinin Şıxlı kəndində müəllim ailəsində anadan olub. Vidadi Babanlı əsərlərini 1962-ci ilə qədər Vidadi Şıxlı təxəllüsü ilə çap etdirib.

Mənsə Gədəbəy bölgəsinin Nəriman kəndində I-ci qrup hərbi qulluq əlili və aqronom ailəsində anadan olmuşam. Aramızdakı böyük yaradıcılıq və yaş fərqinə baxmayaraq tanışlığımızın ilk günündən Vidadi müəllim mənimlə olduqca xoş ünsiyyət yaratdı (doğrudan da, insanda ən gözəl qabiliyyətlərdən biri də qarşısındakını duymaq və onunla ünsiyyət yaratmaq qabiliyyətidir). Elə bu səbəbdən də ondakı məsumluğa, haqsevərliyə, təvazökarlığa, səmimiyyətə heyran qaldım. Buna görə də onu dinləmək üçün onunla tez-tez görüşməyə can atdım, Allaha çox-çox şükürlər olsun ki, bu istəyim də baş tutdu. O vaxtlar adətən axşam üstü Vidadi müəllimlə Şüvəlan yaradıcılıq evinin geniş həyətini dövr edə-edə söhbət eləyərdik. Bu söhbətlərin birində Vidadi müəllim mənim harada ali təhsil almağımla, ata-ana nəslimlə maraqlandı. Dedim ki, Tibb İnstitutunda təhsil alıram. Həkim-cərrah olmaq istəyirəm. Vidadi müəllim dedi:

* Səninlə etdiyim söhbətlərdən mənə belə bəlli olur ki, sən folklorumuzu, klassik ədəbiyyatımızı və dünya ədəbiyyatını dərindən mütaliə edirsən. Yəgin ki, ən böyük arzun sayılıb-seçilən şairlərimizdən biri olmaqdır. Bəs nə əcəb filoloji fakultəni seçməmisən?




***Bu suala belə cavab verdim:***

***- Mən hələ birinci sinifə getmədiyim vaxtlarda əmilərim Tibb institutunda təhsil alırdılar. Onlar tətildə evə gələndə həkimlik sənəti haqqında danışardılar və bir-birlərini sual-cavaba çəkərdilər. Mən də onları maraqla dinləyər, onların bir-birinə verdiyi suallara cavab vermək istəyərdim. Elə bu istək də məni Tibb İnstitutunun tələbəsi elədi. Əla qiymətlərlə Tibb İnstitutuna qəbul oldum, inşalallah əla qiymətlərlə də Tibb İstitutunu həkim-cərrah ixtisasıyla başa vurub, xəstələrə şəfa verəcəyəm.***

***Vidadi müəllim xoş təbəssümlə dilləndi:***

- Fəzail, həkimlik ən xeyirxah və nəcib sənət olduğundan həkimlər içərisində də istər dünya ədəbiyyatında, istərsə Azərbaycan ədəbiyyatında şərəfli yer tutan şair və nasirlər az olmayıb. Mənim də ədəbiyyata hədsiz maraq göstərdiyimi görən atam istəyirdi ki, orta məktəbi qurtarandan sonra yol mühəndisliyifakültəsinə qəbul olam, o sahədə işləyəm. Amma mən bütünlüklə ömrümü ədəbiyyata həsr etməyi qarşıma məqsəd qoydum. Filoloji fakültəyə qəbul olanda şairlərin başının bəlalı olduğunu gözləriylə görən atam onun sözlərinə əməl etmədiyimə görə məndən bərk incidi. Hətta, üzümə bir sillə də vurdu, amma bir qədər sonra "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilən şeirlərimi oxuyub mənimlə barışdı. Sən də gərək atanın, əmilərinin istəyi ilə deyil, Tanrının sənə verdiyi anadan gəlmə şairlik taleyinlə barışaydın. Doğrusu poeziya sənəti elə nəcib sənətdir ki, o sahibini digər sənətlərə qısqanır. Ona görə də gərək sən öz ömrünü bütünlüklə ona həsr edəydin.

Vidadi müəllimin bu sözlərinə köksümü ötürək belə cavab verdim:



- Doğrudan da mən anadan gəlmə kövrək qəlbli şairəm, anadan şair doğulmuşam, bədahətən çox şeirlər demişəm. Hələ məktəbə getmədiyim vaxtlarda tez-tez rəhmətlik anam Gülövşə xanımı küncə qısılıb ağlayan gördüm. Bir dəfə anamdan ağlamağının səbəbini soruşdum. Anam başımı sığallaya sığallaya dedi: "Oğlum tez-tez yadıma ağa nəslindən olduğuna görə başı bəlalar çəkən atam, anam və dünyadan nakam köçən bacım, qardaşım düşür. Mənim atam Məsdər ağa və anam Həcər xanım həm əmi qızı, əmi oğlu olub, həm də göbək kəsdi. Ana babamın adı Çoban ağa, ata babamın adı İsmayıl ağa olub. Çoban ağanın, İsmayıl ağanın Süleyman ağa adında olduqca elmli, helimli bir qardaşları da olub. Babam İsmayıl ağanın yeganə övladı atam Məsdər ağa olub. Belə ki, İsmayıl ağanın həyat yoldaşı Nisəbəyim xanım tez rəhmətə gedib, o bir daha evlənmədiyinə görə İsmayıl ağa Nakam təxəllüsüylə şeirlər yazıb. 37 yaşında dünyadan köçüb. Çoban ağanın Əsgər ağa və Müseyib ağa adında oğulları, Həcər xanım adında qızı olub. Çoban ağanın oğulları da, qızı Həcər xanım da çox igid, alicənab və mərhəmətli insanlar olub. Yetər nənəm (Çoban ağanın həyat yoldaşı) söyləyirdi ki, el yaylağa təzə köçübmüş. Həcər xanım və Əsgər ağa binənin qarşısında beş-daş oynayırlarmış (o vaxt Həcər xanımın on üç, Əsgər ağanın da 11 yaşı varmış). Birdən binədəki adamlar hay-haray qoparırlar ki, ay-haray quldurlar çobanların əl-qolunu bağlayıb, Çoban ağanın sürülərini aparırlar. Bu dəmdə nənəm Həcər xanım qardaşı Əsgər ağaya deyir: "Nə durmusan, dur silahı götür, ata min, mən də kişi paltarı geyinim, silahlanıb ataminim, gedək quldurlardan sürülərimizi alaq. Elə də edirlər". Onu da deyim ki, bu əhvalat təxminən 1911-1912-ci illərdə olub, yeri gəlmişkən, anamın dayısı Əsgər ağanın bu hadisədən 10 il sonra göstərdiyi igidliyə dair bir hadisəni də diqqətinizə çatdırım: "O vaxt, yəni təxminən 1921-1922-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti qurulubmuş. Çoban ağanın bütün var-dövləti müsadirə edilində o, qarətçilərin üzünə haqq sözünü belə deyib: "Bu var-dövləti mən alın-təriylə, əl qabarıyla qazanmışam. Burda həm mənim, həm də iki qardaşımın var-dövləti var. Biz üç qardaş bu var-dövlətdən həm özümüz istifadə eləmişik, həm də bu var-dövlətdən əlillərə, zəlillərə, kimsəsizlərə pay vermişik, onlara ev tikdirib, evləndirmişik, yaman günlərində arxa, kömək olmuşuq. Hərgah siz də bu var-dövlətdən bizim kimi istifadə eləsəniz halalınız olsun, yoxsa onda daha orasını bir özünüz bilərsiniz bir də haqqı nahaqdan seçən əməlinə görə cəza verən qadir Allah... Çoban ağa dövlətini Sovet dövləti əlindən alıbmış. NKVD Xınna mahalında Sarı bulaq deyilən yerin yaxınlığında (indi həmin yerə el arasında rus ölən deyirlər) öz qərargahını qurub kimi istəsə "üçlüyün" qərarıyla sorğu-sualsız güllələyərmiş. "Üçlüyün" bu amansızlığını görən Əsgər ağa onlarla haqq-hesab çəkmək qərarına gəlir. O, gecə yarını keçəndən sonra silahlanıb, yel qanadlı qara atını minib şirin yuxuda olan NKVD-çilərin qəragahına tək başına silahlı basqın edir. NKVD-çilər yuxudan ayılıb silaha əl atana qədər Əsgər ağa onlara aman vermir, bacardığı qədər onları cəhənnəmə vasil edir. Onların çox olduğunu görən Əsgər ağa vurulmağından və tutulmağından ehtiyatlanaraq qara atını məhmizləyir, Sarı bulağın yanından sürətlə Zəyən çayına enib, çayı keçir və qara atını qamçılayaraq Qazançıya doğru üz tutur, arxasınca böyük bir alayın sürətlə yaxınlaşdığını duyduğundan qara atı Yekə Haçaya doğru çapdırır ki, ordaki meşəlikdə NKVD-çiləri aldadıb aralıqdan çıxa bilsin. Lakin atlıların lap yaxınlaşdığını hiss etdiyindən, meşəliyə çatan kimi atdan düşüb yapıncısını ağacın aşağı budağından asaraq, atı sürətlə 20-30 m aşağıya doğru yedəkləyir. Sonra cəld ata minərək atı dolayı istiqamətdə Xinna mahalındakı evlərinə doğru doğru çapmağa başlayır. Yaxınlaşan NKVD-çilər yapıncını Əsgər ağa zənn edərək, xeyli müddət onu güllə-boran edir. Lakin onun yıxılmadığını görüb təəcüblənirlər. Bu vaxt hava işıqlanır, onlar Əsgər ağanın elə keçirə bilmirlər və aldandıqlarını axır ki, dərk edirlər.

Məni heyran-heyran dinləyən Vidadi müəllim dedi:

- Deməli, Həcər xanım ananın anası, Əsgər ağasa ananın dayısı olub. Bəs onların sonrakı ömürləri necə keçib?

Cavab verdim ki, Sovet hökuməti Çoban ağanın qoyun sürülərini, ilxısını, naxırını əlindən alanda o ömrünün ahıl çağlarını yaşayırdı. Çoban ağanın vardövləti əlindən alınsa da o, elin-obanın hər xeyir-şər məclisində başda əyləşərdi. Onu da deyim ki, o, müdrik el-ağsaqqalının sözləri indi də bütün Gəncə basarda yeri gələndə anılır. Həttə, onun Sovet quruluşuyla yaşının çoxolduğuna görə barışsa da onun oğulları Əsgər ağa, Museyib ağa, qardaşı Suleyman ağanın oğlu Səməd ağa, qardaşı İsmayıl ağanın oğlu Məsgər ağa barışmadı, Sovet hökumətinə qarşı son ana qədər, yəni Sonuncu Şəmkir döyüşünə qədər qaçaqlıq etdilər. Şəmkir döyüşünə qədər Sovet dövlətinə qarşı gedən döyüşlərdə Museyib ağa və Əsgər ağa şəhid olur. Səməd ağa və Məsdər ağa isə Şəmkir döyüşündə tutularaq Şuşa qalasına salınır. 1938-ci ildə Səlmi bibim və Həcər nənəm vəfat edir, sonra Məsim dayımı həbs edilir, sonra da Daşan dayımın müharibəyə yaşı çatmasa da onu müharibəyə aparırlar, o, müharibədə həlak olur. Səməd ağa Stalin öləndən sonra Sibir sürgünündən azad olunaraq kəndə qayıdır. O, kəndə gələndə hamıya bəlli olur ki, Səməd ağa 1938-ci ildə Sibirə ömürlük sürgün edilibmiş. Məsgər ağasa Şuşa qalasından qaçaraq Güney Azərbaycanına keçib. 1964-cü ildə əslən Şəmkirdən olan şərqşünas alim Rüstəm Əliyev Güney Azərbaycanında babam Məsdər ağa ilə görüşür. Babam onu evinə qonaq aparır. Ondan xahiş edir ki, Bakıya dönəndən sonra bizim kəndə gəlsin. Gələn dəfə Güney Azərbaycanına gələndə onun ailə üzvlərindən kimlərin sağsalamat qalması haqqında ona məlumat gətirsin. 1964-cü ildə Rüstəm müəllim bizim kəndə gəldi, anam Gülövşə xanımla və Məsim dayımla bu haqda söhbət etdi.

Vidadi müəllim acı-acı köksünü ötürərək dedi:

- Anan Gülövşə xanımın çox acı taleyi olub. Onun hələ on yaşı olmamışatasını, anasını, bacısını, qardaşını itirib. Elədir, dedim, Dasan dayımı 16 yaşında müharibəyə aparıblar, o, da gedib-qayıtmayıb, amma Məsim dayım 1953-cü ilin axırında sürgündən sağ-salamat qayıdıb.

Vidadi müəllim dərin fikrə getdikdən sonra dedi:

***- 30-cu illərin repressiyası xalqımızın tarixində olduqca qara izlər qoyub. Xalqımızın on minlərlə qeyrətli oğulları, qızları güllələnib, Sibirə, Orta Asiyaya ömürlük sürgün edilib, elindən, obasından didərgin salınıb. Mən çoxdandır ki, bu mövzuda bir roman yazmaq barədə düşünürəm. Dostum İsmayıl Şıxlı da "Dəli kür" romanından sonra onun davamı olan "Qanlı təpə" romanını qələmə almaq istəyir. Yazmaq istədiyimiz romanlar barədə xeyli tarixi məlumatlar toplamışıq. Həm də əslimizin və özümüzün başımıza gələnləri də o romanlarda qələmə almaq fikrindəyik. Doğrusu o romanları indi qələmə almağımız mümkün olsa da onları nəşr etdirmək mümkün deyil. İlan vuran ala çatıdan qorxan kimi İsmayıl Şıxlının başı "Dəli kür" romanından, mənim də başım "Vicdan susanda" romanından çox bəlalar çəkib. Hələlik görüşlərimiz zamanı, bu barədə söhbət edəndə bir-birimizə səbirli olmağı məsləhət görürük. İnşaallah vaxt gələr o romanları da yazıb nəşr etdirərik...***

**(ardı gələn sayımızda)**